İnsan münasibətlərində ailə mövzusu birbaşa və bilavasitə məhəbbət motivləri ilə bağlıdır, onunla vəhdət təşkil edir. Lakin V.Tokareva və F.Saqan burada əzəli dünyagörüşü meyarlarına tam şəkildə müvafiq olan öz baxış nöqtəsini axtarır. Seçilmiş tematikaya fərdi yanaşma hər şeydən əvvəl özünü onda göstərir ki, müəlliflər nikah və ailə institutuna tamamilə fərqli yanaşırlar. Fransız yazıçı nadir hallar istisna olmaqla qarşılıqlı iddialarsız rahat keçinir və bununla da XX əsrin ikinci yarısı kübar cəmiyyətinin ehtiyac və meyllərini maksimal dərəcədə ifadə edir. V.Tokarevanın əsərləri qarşılıqlı iddia və məzəmmətlərlə doludur. Əgər Saqan məişət zəminində hər hansı təmasdan bilərəkdən çəkinirsə, rus yazıçı üçün onlar, əksinə, mühüm rol oynayırlar. Nəzərə alınsa ki, yazıcıların ən yaxşı əsərləri müasir həyat kəsiyinin gözəl işlənmiş surətidir, o halda ailə tematikasının ən mühüm qanadlarından birinin öyrənilməsi olduqca aktual görünür.

**Tədqiqatın predmeti.** Tədqiqatın əsas predmeti V.Tokareva və F.Saqanın müxtəlif dövrləri əhatə edən yaradıcılığıdır. Onların təbliğ etdikləri mövzu, motiv və ideyaların müəyyən təmas nöqtələri vardır. Məhəbbətdə ideal axtarışlarından (yaş həddindən asılı olmayaraq münasibətlərdə harmoniya) başlamış onun itirilməsinə, münasibətlərin mənəvi-psixoloji dağılmasına (disharmoniya) qədər uzanan və müəlliflər tərəfindən dəqiq müəyyənləşdirilmiş xətti qeyd etmək zəruridir. Bu, bütün hadisələrin yan-yana düzüldüyü muncuq sapıdır. Bu zəncir həm də qəhrəmanların davranış xarakterini müəyyən mənada təyin edir. V.Tokareva və F.Saqan öz əsərlərində bu kredoya tam sadiq qalırlar.

**Tədqiqatın obyekti.** Tədqiqatın əsas obyekti F.Saqan və V.Tokarevanın bu və ya digər məqsədlərə nail olmaq üçün istifadə etdikləi bədii priyomlar kompleksidir. Məsələn, müəyyən olunmuşdur ki, gənc qəhrəmanların mühakimələri (birinci fəslin materialı) əksər hallarda onların həyatları-

nın kədərsiz və qayğısız olmasına dəlalət edir. Onların dünyası əzəldən disharmonikdir, çünki həyatları möhkəm dayaqlar üzərində qurulmayıb, baxmayaraq ki, onlar məhəbbət və dolğun ailənin saxlanılması məsələsində əks fikirdədirlər. Böyük həyat təcrübəsi olan insanların davranışında (ikinci fəslin materialı) fəlsəfi yanaşma daha çoxdur, çılğınlıq və zahiri sünilik azdır. Burada tədqiqatın əsas obyekti kimi şəxsiyyətin daxili sərbəstliyi çıxış edir.

**Mövzunun işlənmə dərəcəsi.** V.Tokareva və F.Saqanın yaradıcılığı bu günə qədər iri monoqrafik nəşrlərin və dissertasiya işlərinin məxsusi tədqiqat obyekti olmayıb. M.A.Bondarenko [8], N.M.Kalaşnikova [27], V.Novikov [41] və digərlərinin məqalələrində V.Tokarevanın hekayə və povestlərinin qısa təhlili yer alıb. Lakin bu məqalələr əsasən ümumiləşdirilmiş-sxematik xarakter daşıyır. F.Saqanın yaradıcılığıq irsinin öyrənilməsində vəziyyət daha acınacaqlıdır. Əsas tənqidi məqalələr sırasında N.D.Şkunayevanın [89] böyük həcmli əsərini və N.Dardıkinin [14] dolğun məqaləsini göstərmək olar. Bir neçə tədris ədəbiyyatı da mövcuddur (N.C.Məmmədxanova. «XX əsrin II yarısının xarici nəsri», həmçinin həmin müəllifin «XX əsrin 70-90-cı illərinin fransız romanı» [34] adlı monoqrafiyası). Digər tədris vəsaitlərində F.Saqanın yaradıcılığına yalnız ekzistensial mövqedən yanaşılır və bu işlər populyar tanışlıq xarakteri daşıyır. Bir neçə fransız məxəzləri də var: Boisdeffre P. de. Ou va le roman? Essai. – P.: Del Duca, 1972; Lamy J.-C.Sagan.- Paris, Mercure de France, 1998; Mace M.A. Le roman francais des annees 70, Presses universitaire de Rennes, 1995 və başqaları. Lakin məlum səbəblərdən rusdilli filoloji elmdə onların öyrənilməsi çətinlik yaradır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi F.Saqan və V.Tokarevanın yaradıcılığında dolğun münasibətlər qurulmasının əvəzolunmaz meyarı kimi çıxış edən məhəbbət harmoniyasının son nəticədə dağılması barədə tezisin təsdiq edilməsidir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulur:

- F.Saqan və V.Tokarevanın yaradıcılığının spesifikasını göstərmək;
- onların əsərlərinin tematikasındakı ümumi cəhətləri müəyyən etmək;
- F.Saqan və V.Tokarevanın bədii əsərlərinin problematikasında ən ümumi təmas nöqtələrinin axtarış dairəsini müəyyənləşdirmək;
- harmoniyadan disharmoniyaya şərti keçidin sərhədini müəyyən etmək.

**Tədqiqatın metodu.** Dissertasiyada bir neçə elmi yanaşmadan istifadə edilib:

1. Ayrı-ayrı qeyri-tipik faktların müasir ailənin ümumiləşdirilmiş sxemində birləşdirilməsi metodu.

2. Əsas problem olan məhəbbətin harmoniya və disharmoniyası üzrə qarşılıqlı-müqayisəli tədqiqat metodu.

3. F.Saqan və V.Tokarevanın əsərlərində gizli mənanın rolu barədə bəzi əlavə məlumatların kodirovkasını dəqiqləşdirməyə gömək edən xüsusi filoloji şərh.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi onun kifayət qədər öyrənilməməsi ilə müəyyən olunur. Bizim tərəfimizdən ilk dəfə olaraq elmi dövriyyəyə əsasında «məchulluğa varmaq» mövzusunun real təcəssümü dayanan «saqan-tokareva həyati ziqzaqı» anlayışı gətirilir. Məhəbbət seçimi azadlığı probleminə yanaşma da novator yanaşma kimi təsəvvür edilir. Sübuta yetirilmişdir ki, F.Saqan romanlarının qəhrəmanlarının əksəriyyəti hərəkətlərində özlərini azad, lakin eyni dərəcədə tənha və narahat hiss edirlər. V.Tokarevanın hekayə və povestlərində vəziyyət bir qədər fərqlidir: müəllifin fikrincə professional məşğulluq nə qədər çoxdursa, insan daxili azadlıq simptomlarını bir o qədər çox hiss edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** V.Tokareva və F.Saqanın yaradıcılığının müqayisəli təhlili problem-məzmun səviyyəsindən tutmuş üslub xüsusiyyətlərinə qədər bir neçə səviyyədə aparılır. Bu yolda həmçinin yazıçıların ideoloji platformaları da təhlil edilir. Müəyyən edilmişdir ki, dissertasiya işində dayaq qismində çıxış edən fərdiliyin ənənəvi elementləri tipizasiyanın təzahür forması kimi, heç şübhəsiz nəzəri əhəmiyyət kəsb edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiyanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın əsas elmi müddəaları və nəticələrindən 20-ci əsrin sonu 21 əsrin əvvəli müasir rus və Avropa ədəbiyyatı üzrə bədii əsərlərin müvafiq mətnləri öyrənilərkən istifadə edilə bilər. Tədqiqatın materiallarından həmçinin rus və fransız ədəbiyyatı üzrə ali məktəblərdə mühazirə kurslarında, müasir rus və Avropa ədəbiyyatı tarixi üzrə xüsusi kurs və xüsusi seminarlarda istifadə oluna bilər.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. V.Tokareva və F.Saqanın erkən dövr əsərlərində ənənəvi «atalar və oğullar» qarşıdurması özünü qabarıq şəkildə göstərmir. Eyni zamanda məhz yaş senzi V.Tokarevanın hekayə və povestlərinin süjet quruluşu və kompozisiya xüsusiyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, fabula sferasında gənc qəhrəmanların (F.Saqanın erkən romanlarında Sessil və ya Dominika, V.Tokrevanın «Ən xoşbəxt gün» hekayəsində adsız personaj) özünü aparmaq manerası, adət və vərdişləri yarıuşaq fantaziyalı

adamların dünyaya münasibəti ilə üst-üstə düşür. Onlar ömrün düşünmədən sağa-sola xərclənməsinə tamamilə uyğun gəlirlər. Kompozisiya sahəsində F.Saqan və V.Tokarevanın müqayisə olunun əsərləri daha çox dramatik məqamlar üzərində cəmlənib. Odur ki, burada bir vəziyyətdən digərinə keçid daha kəskindir, bəzən əsəb pozğunluğu xarakteri daşıyır, depressiyalar isə təbii şəkildə yüngül qüssə əlamətləri ilə əvəz olunur, cavanlara dərk etmək və peşmançılıq hissi keçirmək üçün, demək olar ki, yer qoymur.

2. V.Tokareva və F.Saqanın son dövr əsərlərində əsasən etibarilə böyük həyat təcrübəsi olan insanlar təsvir olunur. Bu zaman kompozisiyanın qeyri-adi detalları və orta nəsil insanlarına xas olan ən ümumi tipoloji cəhətləri özündə əks etdirən bəzi psixoloji nüanslar ortaya çıxır. Süjet quruluşu sahəsində əksinə, yelbeyinlik arxa planı keçir, onun yerini isə davranışda, hərəkətlərdə aşkar təmkinlik tutur. V.Tokarevanın təhlil üçün seçdiyimiz hekayə və povestlərinin, F.Saqanın romanlarının kompozisiyası isə məhəbbət münasibətlərinin hadisələrlə bağlı tərəfinə artıq o dərəcədə bağlı deyil; qəhrəmanların psixoloji durumuna və daxili düşüncələrinə daha çox rol ayrılır. Əlamətdar haldır ki, bütün əsərlərin finalı oxşardır: şəxsi münasibətlərin, məhəbbət əlaqələrinin pozulması və tənhalıq (F.Saqanın romanlarında demək olar ki, işıq ucu görünməyən, V.Tokarevada isə yaxşı heç nə vəd etməyən).

3. Yazıçıların əsərlərində harmoniya insanlar arasında məhəbbət əlaqələrinin yalnız ilkin mərhələsində mövcuddur və möhkəm olmayan zəmin üzərində qərarlaşıb – vurğunluq, aşiqlik, ehtiras. Odur ki, V.Tokareva və F.Saqanın qəhrəmanlarının əksəriyyəti məhəbbəti qorumaq iqtidarında deyil, əlaqələrin kəsilməsinin əsas səbəbi isə əksər hallarda şəxsin daxili imkanlarının zəifliyi və bir-birini başa düşməməkdir. Məsələn, onların bir çoxuna xas olan eqosentrizm həm daxildə, həm də məhəbbətdə harmoniyaya nail olmağa əngəl yaradır.

4. Ənənəvi mənada «ailə» anlayışı və xarakterlərin ailə münasibətləri vasitəsilə açılması V.Tokarevanın yaradıcılığında mühüm yer tutduğu halda, F.Saqanın əsərlərində ümumiyyətlə yoxdur, onu faktiki olaraq yalnız iki insan arasındakı münasibətlər əvəz edir. Beləliklə, V.Tokarevanın dünyasını ailə, F.Saqanın dünyasını isə qarşılıqlı münasibətlər idarə edir.

**İşin aprobasiyası.** Dissertasiyanın əsas müddəaları öz əksini məqalələrdə tapmış və Bakı Slavyan Universitetinin dünya ədəbiyyatı kafedrasının iclaslarında müzakirə edilmişdir. Tədqiqatın nəticələri respublika və beynəlxalq elmi konfranslarında aprobasiyadan keçmişdir.

**İşin strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir Dissertasiya işinin həcmi kompyuter qrafikası ilə 138 səhifədir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, dissertasiyanın məqsəd və vəzifələri, öyrənilmə dərəcəsi, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

Təqdim olunan dissertasiyanın iki fəsli ümumi şəkildə aşağıdakı nəticələrə gəlməyə və ümumiləşdirmələr aparmağı imkan verir. Fransuaza Saqan və Viktoriya Tokarevanın müxtəlif janrlı əsərlərinin baş qəhrəmanları iki rakursda işıqlandırılır:

1. Yeniyetməlik dövrünün fantaziyaları və sevindirici ümidləri aləmində yaşayan gənclər. Məlum olduğu kimi bu yaşda əsl məhəbbəti vurğunluqla dolaşıq salmaq çətin deyil;

2. Orta və yaşlı nəslin nümayəndələri. Böyük həyat və ailə təcrübəsi sayəsində onlarda müəyyən vərdişlər formalaşıb, həmçinin rus və fransız cəmiyyətində dəqiq sosial statusları müəyyənləşib. Dissertasiyanın materialları məhz xronoloji və yaş senzinə uyğun bərabər şəkildə bölüşdürülüb.

Dissertasiyanın **«Fransuaza Saqan və Viktoriya Tokarevanın yaradıcılığının erkən dövründə ideal həsrəti»** adlanan birinci fəslində fransız yazıçının ilk romanlarının V.Tokarevanın kiçik janrda yazılmış əsərləri ilə üzvi şəkildə müqayisəli təhlili aparılır. Bunlar F.Saqanın «Salam, kədər!» və «Tutqun təbəssüm», V.Tokarevanın «Demək-deməmək…», «Hər şey normaldır, hər şey yaxşıdır», «General Kuropatkinin evi» əsərləridir. Adı çəkilən əsərləri ilk növbədə aşağıdakı ən mühüm ideya birləşdirir: F.Saqan və V.Tokarevanın qənaətinə görə XX əsrin ikinci yarısında Fransa və Rusiaya gəncləri əsasən yüngül və yeknəsəq həyat tərzi keçirir. Personajlar öz əhatə dairəsində bir-birilərinə münasibətdə intuitiv olaraq nəcib hisslər nümayiş etdirməyə çalışırlar, lakin reallıqda onlar sanki Kantın «özündə şey» təliminə uyğun olaraq öz cavan könüllərində tənhalığa qapılırlar. Ayrı-ayrı personajların qəlbində müəyyən vaxta qədər qorunub saxlanan təbii və ülvi hisslər saf platonik məhəbbətə can atır. Fransız və rus gənclərinin ən yaxşı ideallara inam hissini müvəqqəti olaraq dəstəkləməklə harmoniya üçün münbit zəmin yaradan da məhz elə budur.

Lakin bu harmoniya müəyyən vaxta qədər davam edir. Nə qədər ki, onlar bir-birinə qarşı müəyyən sevgi hissələri keçirirlər, harmoniya saxlanılır, özü də bilməyərəkdən «başlarına topladıqları» xoşbəxt ideal yox, daha çox onun görüntüsü. Məsələnin mahiyyəti ondan ibarətdir ki, rus və fransız yazıçıların qəhrəmanları onların ən yaxşı arzu və əqidələrini sanki içəridən yeyib-dağıdan permanent daxili disharmoniya vəziyyətindədirlər. Əksər hallarda gənclərin məqsədi öz heysiyyətini əzizləməkdir. Eyni zamanda onların bütün şöhrətpərəst niyyətləri adətən müəyyən fraza və hərəkət sistemi ilə məhdudlaşır. Buna görə də onlar inkişaf etmək, artmaq iqtidarında deyillər. Elə ki, həqiqi və yalançı hisslər arasında sərhədlər nazilir və ya tamamilə itir, F.Saqanın romanlarının, V.Tokarevanın isə hekayə və povestlərinin personajları avtomatik olaraq disharmoniya vəziyyətinə düşürlər.

Bununla əlaqədar, işin birinci fəslində müfəssəl göstərildiyi kimi, V.Tokareva və F.Saqan qəhrəmanlarının ürəyini pas kimi yeyən vicdansızlıqla həqiqi hiss arasında tarazlıq gənc ürəklərdə tezliklə pozulur. Üstəlik, gənclərin istənilən kəskin problemlərdən kənarda qalması nəzərə alınarsa, aydın olur ki, bu tarazlıq cəmiyyətin mənəvi-etik atmosferində tənəzzüldür. Özü də bu proses yazıçıların yaradıcılığında ötəri deyil, odur ki, bizim tərəfimizdən ayrı-ayrı dövrlərə bölünmüşdür. Hər qeyd edilmiş mərhələdə məhəbbət, yaxud ailə münasibətlərinin inkişafı fərdi qaydada həyata keçirilir, çünki cütlük nisbətən müstəqil həyat yaşayır. Halbuki, gənclərin yaşa dolmasının bütün mərhələləri bir-birinə görünməz tellərlə bağlıdır; onlar V.Tokareva və F.Saqanın əsərlərində məhəbbətin, ailə, yaxud iki cavan arasında qarşılıqlı münasibətlərin ziddiyyətli kolliziyalara nə cür gətirib çıxardığını ayəni şəkildə göstərir. Odur ki, zaman keçdikcə harmoniya disharmoniyaya keçir. Bu, o deməkdir ki, axtarılın xoşbəxt ideal formuluna dissertasiyanın fəsillərində bilavasitə müəyyən məhəbbət etalonu kimi baxılır. Müəlliflər məhz elə həmin etalonun dolğunluğunu göstərmək istəyirlər. Beləliklə, ideal, hər halda müəyyən vaxt, yaşamaqda davam edir, axı F.Saqan və V.Tokarevanın qəhrəmanları özləri bildiyi kimi onu qoruyur, əzizləyir, əldən vermək istəmirlər.

Bu, F.Saqanın «Salam, kədər!» romanında Sessil ilə tələbə Siril, «Tutqun təbəssüm» romanında Dominika və Lyuk, V.Tokarevanın «Hər şey normaldır, hər şey yaxşıdır» hekayəsində Aleksey Boçarovla arvadı, «General Kuropatkinin evi» hekayəsində Katerina ilə Vitali, «Raraka» hekayəsində Larisa ilə musiqi müəllimi arasında münasibətlərin nümunəsində göstərilib. Fransız və rus yazıçının bu və bəzi digər əsərlərində məsələnin

mahiyyəti yalnız ədəbi qəhrəmanların gözlənilməz və ehtiraslı məhəbbət çırpıntılarını düzgün qiymətləndirməkdir. Sözsüz ki, harmoniya elementləri bu çırpıntılarda özünü göstərir, lakin fikrimizcə onlar çox etibarsız zəminə söykənir. Harmoniya yalnız cavanlar arasında məhəbbət münasibətlərinin inkişaf etdiyi ilk dövrdə mövcud olur və çox zəif əsaslar üzərində dayanır. Konflikt dərinləşdikcə məlum olur ki, həqiqi hisslər onlar üçün əlçatmazdır, gənclik illərini bada vermək həvəsi sanki bu hisslərin qarşısını kəsib. F.Saqanın sərrast ifadəsinə görə, onlar həyatda addımlamırlar, yalnız iz qoyurlar, pərvanə kimi pərvaz edirlər.

Məsələn, məhəbbətin ilkin ehtirasları personajların az qala özlərinin də xəbəri olmadan rəvan şəkildə bir-birini eşitməyə, həyan olmağa imkan verməyən qarşılıqlı «rəhmsizlik» mərhələsinə keçir. Tədqiqat işində təmiz və açıq qarşılıqlı ünsiyyətin az qala başlanan kimi qırılması məqamına xüsusi diqqət yetirilir. Ədəbi-tənqidi təhlilin gedişində ilk növbədə təsdiq edilir ki, gənclərin ünsiyyətində ümumi təmas nöqtələri azdır. Digər tərəfdən, təkzibolunmaz faktdır ki, V.Tokareva və F.Saqan eyni nəsil yazıçılara aid olsalar da, müxtəlif cəmiyyətlərə mənsubdurlar. Halbuki birinci fəsildə yer alan problemlərə yanaşmalar eyni olaraq qalır. Qəhrəmanların xarakteri deməyə imkan verir ki, onlar formal olaraq, yəni xəyal və istəklərində böyük və həqiqi məhəbbətə, deməli harmoniyaya can atırlar. Lakin qəhrəmanlar məhəbbəti qoruyub-saxlamaq iqtidarında deyillər. Ayrılmağın əsas səbəbi isə əksər hallarda daxili potensialın zəifliyi və məhəbbət münasibətlərinin inkişafına maneçilik törədən qarşılıqlı anlayışın olmamasıdır. Dissertasiyada qəti nəticəyə gəlirik: əgər başqasının ağrısını öz üzərinə götürməsən, acısına şərik olmasan, ideal mütləq öz gücünü, harmonik münasibətlər isə tarazlığını itirir.

Müxtəlif ölkələrdə nəhəng dövrün dəyişikliklərinin şahidi olmaqla yanaşı, prinsipial fərqli mentalitentləri təmsil edən iki həmmüasir yazıçının bu məsələdə xüsusi xidməti kimi ilk növbədə V.Tokareva və F.Saqanın idealın dağılması prosesinə münasibətdə həmfikir olmaları göstərilməlidir. Bu, ona görə baş verir ki, gənclərin sevən könülləri ciddi daxili düşüncənin yüksəkliklərinə qalxa bilmir. Onlar bu həqiqi hisslərin uzun müddət qorunub saxlanması üçün konkret cəhdlər də etmirlər, çünki fransız və rus gənclərin real prototipləri əvəzində heç nə vermək istəmirdilər, heç nəyi dəyişmək istəmirdilər. Onlar ailənin dağılmasının qarşısının obyektiv, yaxud potensial alınmasına (V.Tokarevanın hekayə və povestlərində), iki nəfərin münasibətlərini xilas etməyə cüzi imkan verən dərdə şərik olmaq bacarığının daxili yetkinliyinə açıq-aşkar hələ gəlib çatmayıblar. Bu cür

vəziyyət o fakta əsaslanıb ki, yazıçıların gənc qəhrəmanları təbiətləri etibarilə yelbeyindirlər və həyatlarını heç bir şeydə çətinliyə salmaq istəmirlər. Onların əksəriyyəti məhəbbətdə prinsipcə özlərini tapa bilmir, bu hissin qarşısında ürəklərini taybatay açmır, münasibətlərin üzərində işləməyi bacarmırlar.

Beləliklə bu fəsildə üçüncü mərhələyə – gənclər sarsıntılı psixoloji durumda olduqları zaman sevgi münasibətlərinin kədərli nəticəsini qabaqcadan hiss etdiklərindən harmoniyanın pozulmasına keçid baş verir. Düşünürük ki, orta mərhələ ideallarin dəyişməsi və gözlənilməz həyat şəraitinin onları yoldan çıxarması ilə müşayiət olunan ilk vurğunluq dövründən başlayır. Sessil üçün (F.Saqan «Salam, kədər!») bu, «məhəbbət haqında tez-tələsik, coşqun və ani təsəvvürdür»; Tokarevanın qəhrəmanı üçün isə («Demək–deməmək...») keçmiş sovet cəmiyyətində çəkisi və sanbalı şərti olaraq müəyyən əşyalarla, primitiv və aşağı səviyyəli tələbatla ölçülən oğlanlara düşünülməmiş, merkantil, müəyyən mənada qeyri-normal meyldir.

Daha sonra həmin hekayədə özünü itirən qadının dilindən aşağıdakı kədərli sözlər çıxır: «Ünsiyyətdə olmasan – dəli olarsan. Yaşamaq – ünsiyyətdir. Ünsiyyət isə – səmimilikdir» [67, 203]. Lakin, belə abstrakt səmimilik bədbəxt insanların gözləri önünə yalnız idealda gəlir. Reallıqda isə o yoxdur, onun yerini qarşılıqlı soyuq münasibət tutur.

Həmin tezisi gücləndirmək və obyektivliyini sübut etmək üçün dissertasiya işində bu məsələ ilə bağlı tanınmış tənqidçi İ.D.Şkunayevanın müşahidələrindən sitat gətirilmişdir. Tənqidçi o cümlədən yazır: «Sessilin onu sevən dostu var. Həmin adam Sessillə evlənmək istəyir. Sessilin həmin adamdan xoşu gəlir, onunla yaxınlıq edir, lakin səbəbini özü də bilmədən evlənmək təklifini cavabsız qoyur. Onun adət etdiyi əhatədə nikah məsələsi mühüm sayılmırdı, uşaqların doğulması və tərbiyəsi isə ümumiyyətlə hesaba alınmırdı. Özü də qəzəbli və kinli yox, həmin o mehriban və şən eqoizm səbəbindən. Elə də yaşayırlar. Bir-birindən razı halda» [ 89, 226].

Üstəlik, məlum olur ki, eqoizmdən başqa gənc qəhrəmanlar arasında münasibətlərin korlanmısının daha bir mühüm səbəbi biganəlikdir, şəxsən özü üçün mümkün qədər çox şey qopartmaq istəyidir. Lakin çiyinlərində məsuliyyət hiss etməyən həm rus, həm də fransız gəncləri həyatın yeknəsəq gedişindən tezliklə cana gəlirlər; o zaman yeni məhəbbət ehtirasları və hisslərinə yiyələnmək kimi təbii istəklər meydana gəlir. Gənc qəhrəmanların şəxsi münasibətlərindəki biganəliyin və qarışıqlığın kvintessensiyası özünü ilk növbədə ideal həsrətində büruzə verən ciddi psixoloji sarsıntıya gətirib çıxarır. Viktoriya Tokareva və Fransuaza Saqanın erkən əsərlərində bu əsas

motiv faktiki olaraq personajların bütün gələcək taleyini müəyyən edir. Lakin, bizim müşahidələrimizə görə məhəbbət konfliktinin inkişaf forması bir qədər fərqlidir. Bu özünü nədə göstərir?

Birincisi, V.Tokarevanın erkən dövr hekayə və povestləri qarşılıqlı iradlar, tələsik, o səbəbdən də, fikrimizcə, ədalətsiz qərarlar, həmçinin məhəbbətdə əsassız şişirdilmiş tələblərlə doludur. Burada hər yerdə incikliyin, deyilməmiş sözlərin, haqsız tələblərin qalıqlarına rast gəlinir. F.Saqanın erkən dövr yaradıcılığında, əksinə, öyüd-nəsihət yoxdur, yazıçı didaktikasız çox asanlıqla keçinir. İkincisi, V.Tokarevanın qabarıq ifadə edilmiş «məişət realizmi» idealın itirilməsi faktına öz tutarlı möhürünü vurur. Bir məsələdən də yan keçmək olmur ki, Rusiyada gənc qəhrəmanlar daim iş axtarmaqla məşğuldurlar, hər halda öz qüvvə və bacarıqlarını sərf etməyə yer axtarırlar. Halbuki F.Saqanın romanlarında bu məsələyə heç bir xüsusi diqqət ayrılmır. Odur ki, rus yazıçının hekayə və povestlərində məhəbbətdə əvvəlki illüziyaların dağılması daha ağrılı proses olur. Baş qəhrəmanların eyni dərəcədə yüngülxasiyyət olmasına baxmayaraq, ideal həsrəti gözlənilən və dramatik xarakter daşıyır. Müqayisə edək: F.Saqanın ilk əsərlərində hətta yeniyetmənin günahı üzündən baş vermiş faciəli hadisələr (məsələn, «Salam, kədər!» romanında Annanın həlak olması), sonralar yalnız kədərli hissələrlə yadda qalır.

Yaşa dolmağın dördüncü mərhələsi – idealın itirilməsinin artıq tamamilə aydın dərk edilməsindən doğan qorxudur. V.Tokareva və F.Saqanın qəhrəmanları yaşlaşmanın hansısa həddini keçirlər. Bu zaman yaşları ilə müqayisədə daha çox inkişaf etmiş qadın personajlar əldə etdikləri idealın səbatsızlığını və qeyri-müəyyənliyini kəskin və ağrılı şəkildə dərk etməyə başlayırlar. Eyni zamanda, bu, yazıçıların üfüqdə görünən kimi qəhrəmanlar üçün əlçatmaz olan «yüngül» xoşbəxtliyin dəyərsizliyini intuitiv olaraq öncədən hiss etməsi üçün mühüm amildir. Özündən narazılıq, keçilmiş yolun bütün mərhələlərinin səhv olması hissləri baş qaldırır. Ortaya çıxan depressiv vəziyyətin öz tutarlı səbəbləri var. V.Tokareva və F.Saqan hadisələri elə ustalıqla təsvir edirlər ki, oxucularda baş verənlərin doğruluğuna (hər halda süjetin inkişafının müəlliflər tərəfindən təklif olunan ssenarinin variativliyinə) heç bir şübhə oyanmır. Bu məsələ ilə bağlı F.Saqanın «Salam, kədər!», «Tutqun təbəssüsm» romanları və V.Tokarevanın «Mən varam. Sən varsan. O vardır» və «Demək – deməmək…» povestləri müqayisə olunur.

Məsələn, yeniyetmə qızların böyüməsinin başlıca mərhələlərinə istinadən göstərilir ki, Sessil üçün tezliklə onun daxili psixoloji aləminin

mahiyyətini təşkil edən, daim arzusunda olduğu «tez-tələsik, cohşqun, ötəri məhəbbət»dən təəssüf hissi keçirmək vaxtı çatır. Məsələ burasındadır ki, böyük məhəbbəti insanın eqoistik arzularının dar çərçivəsinə sığışdırmaq mümkün deyil. Fransız yazıçı oxucularına təlqin etmək istəyir ki, əsl məhəbbət üçün həmişə bir qədər boş məkan saxlanılmalıdır. İnsan ən yaxşı ideallarını burada reallaşdırır. Lakin Sessilin keçdiyi yolun mərhələləri bu qanunlara əsla tabe olmur, bu yol onun atasının xarakterinin faktiki olaraq bütün mənfi xüsusiyyətlərini canına çəkmişdir. Əksinə, o da atası kimi düşüncəsiz həyat tərzinə üstünlük verir. Dönüklüyü, son dərəcə tündməcazlığı və qeyri-sabit xarakteri ilə seçilən dəlisov gənc qızın yüngül davranışı qabarıq şəkildə təsvir edilmişdir. Sessil həyata əyləncə kimi baxır, odur ki, hətta ilk gənclik məhəbbəti dövründə də fədakarlıq barədə fikir onun ağlına belə gəlmir. İnsanlarla ünsiyyət seçiminə bu cür qeyri-ciddi münasibət, hər gördüyünə vurulmaq «şəraitində» F.Saqan sanki dolayısı sual edir: müasir gənclər bu həyata hansı baqajla qədəm qoyurlar, əvəzində hansısa mənəvi kompensasiya tələb etmək üçün özləri ilə nə gətirirlər?

Öz məhəbbət idealını əldən verən, sonra isə onun həsrətini çəkən gənc qızın böyüməsinin analoji mərhələləri V.Tokarevanın «Demək-deməmək...» povestində də yer alıb. Artıq bu hekayənin adında gənc qəhrəman Artamonovanı illər uzunu müşayiət edən iki anlayışın qarşı-qarşıya qoyulası sezilir. O «tələbə adandan məhrum olan» Kireyevi gizlində sevir və hekayənin adından da göründüyü kimi ürəyini ona açmağa heç cür cürət etmir. Eyni zamanda, baş qəhrəmanın başına bir xeyli xırda işlər də gəlir. Bu hadisələr sübut edir ki, hisslərin gizlədilməsi və ya bütün varlığı ilə məhəbbətə baş vura bilməmək sanki Saqanın ideyası ilə səsləşərək son nəticədə yaxın insanın itirilməsinə gətirib çıxarır. Aydın olur ki, V.Tokareva və F.Saqanın gənc qəhrəmanlarının doğma və yaxınlarına münasibəti gözlənilmədən başqa insanlara olan düşmənçilik münasibətlərini üzə çıxarır. Göstərilir ki, öz məhəbbət idealını ağılsız və düşüncəsiz şəkildə necə əldən vermək olar.

Nəhaət, sonuncu, beşinci mərhələnin mahiyyəti, zənnimizcə insanlar arasında ünsiyyət qurmaq cəhdlərinin mənasız olmasından ibarətdir. F.Saqanın yaradıcılığında bu özünü əsasən ekzistensial mövqelərdən göstərir. Bu zaman, müəyyənləşdirdiyimiz kimi, təklikdən yalnız yüngül qüssə əlamətləri qalır; V.Tokarevanın əsərlərində isə sevimli insanla ayrılmaq faktı ilə bağlı əsərin qəhrəmanı əksər hallarda sırf məişət qayğılarına qapanır. Bundan əlavə, əgər fransız yazıçı doğma ev mövzusuna toxunmursa, əksinə, rus yazıçı üçün bü milli anlayışdır və oxuculara az qala dini pak-

lığın nişanəsi kimi təqdim edilir. Lakin hər iki halda müəlliflər qəhrəmanlarını bütün ümidlərin puç olması həddinə yaxınlaşdırırlar. Böyük çətinliklə qazınılmış ideallarıın asanlıqla dəyərdən düşdüyü zaman şərin həqiqi kökləri üzə çıxır.

Dissertasiyanın **«V.Tokarevanın və F.Saqanın son dövr yaradıcılığında azad məhəbbət seçimi problemi»** adlanan ikinci fəslində əsas məsələ yaşa dolmuş qəhrəmanlarda baş vermiş dəyişikliklərin müəyyən edilməsidir. Orta və yaşlı nəslin nümayəndələrinin həyat təcrübəsi, şübhəsiz ki, daha çoxdur. Onların qarşılıqlı münasibətlər, habelə ailə vəzifələri və borcları haqqında anlayışları ilk növbədə ünsiyyət dairələrinin əhəmiyyətli surətdə genişləndiyi səbəbindən xeyli dərəcədə dəyişib.

F.Saqanın «Soyuq suda bir qədər günəş», «Siz Bramsı sevirsiniz?», «Tutqun profil» romanlarında, V.Tokarevanın «Uzun gün», «Raraka», «Uçan yelləncək», «Dərin qohumlar» hekayə və povestlərində demək olar ki, bütün personajlar nikahdankənar əlaqələrini öz professional fəaliyyətlərindən ayırmırlar. Lakin F.Saqanın əsərlərində iş partnyorları ilə əlaqələrin qırılması (məsələn, «Soyuq suda bir qədər günəş» romanında jurnalist Jil) yeni sevgi macəraları ilə kompensasiya edilir. Onun həmkarının əsərlərində bədii obrazın iş yerindən asılılığı daha sərtdir. Erkən romanlarda bu cür parametrlərlə analoji davranış modeli tərəfimizdən praktiki olaraq müşahidə edilməyib. Bununla da yüksək yaş həddi hər iki yazıçını qəhrəmanların həyat tərzini əhəmiyyətli dərəcədə dəyişmək zərurəti qarşısında qoydu. Təbii ki, ikinci fəsildə təqdim olunan materialın bir hissəsi bilavasitə qəhrəmanların digər personajlarla qarşılıqlı münasibətlərinin mürəkkəb psixoloji əsaslandırılmasına həsr olunub.

Birinci fəsildə geniş və əhatəli təqdim olunan obrazlardan fərqli olaraq, V.Tokareva və F.Saqanın son dövr yaradıcılığı baş qəhrəmanların davranışında əlavə meyarlarla səciyyələnir. Sessil, Dominika, Katerina və digərlərindən fərqli olaraq, onlar artıq həyatda bu qədər açıqcasına pərvaz etmirlər. Bundan belə rus və fransız yazıçısı üçün onların davranış kredosu nəzərəçarpan dərəcədə təshih edilib; bu və ya digər qərarların kənardan qiymətləndirilməsi daha tənqidi və ölçülüb-biçilmiş xarakter daşıyır (cəmiyyətin F.Saqanın «Tutqun profil» əsərində Yulius A.Kramın sevgi görüşləri, yaxud V.Tokarevanın «Dərin qohumlar» hekayəsindəki süjetdənkənar personajlarla bağlı fikirləri). Eyni zamanda, xüsusi qeyd edilmişdir ki, müəyyən dəyişikliklərə baxmayaraq V.Tokareva və F.Saqanın son dövr yaradıcılığında təlatümlü və qarışıq həyata yekun vurulması heç də

sevindirici nəticəyə gətirib çıxarmır. Demək olar ki, əksər hallarda hər şey öz əvvəlki yerinə qayıdır.

Biz F.Saqan və V.Tokarevanın biganəlik və eqoizm kimi neqativ hisslərin təzahürünə qarşı ironik və ya daha ciddi münasibətindən savayı qəhrəmanların bir sıra fərdi həyat prinsiplərini də göstəririk. V.Tokarevada onlar yalnız məişət qayğılarının deyil, ilk növbədə şəxsi inciklikləri̇n, ailə qalmaqallarının və əsassız ittihamların içində batıb qalıblar. Fransız yazıçı son dövr yaradıcılığında da qarşılıqlı iddialarsız asanlıqla keçinir. Bundan əlavə, F.Saqanın son dövr romanlarında personajların çoxu qayğısız epikurçu vaxt keçirməyə üstünlük verərək, ifrat eqosentrik vərdişləri üzündən öz həqiqi «Mən»ini bilərəkdən ətrafdakıların nəzərindən gizlədirlər. Lakin pozğun həyat tərzi bumeranq kimi dönərək «məchulluğa varmaq» ilə nəticələnir. İkinci fəslin xüsusi bölməsi bu aparıcı formula həsr edilib. Yazıçılar üçün yetkin yaşlı insanların bu cür həyat tərzi əslində o deməkdir ki, absurd olan belə boş mövcudluğu davam etməyin mənası yoxdur. Məsələn, V.Tokareva və F.Saqanın bir çox qəhrəmanları bir-birinin istək və hisslərinə nifrət bəsləyir, lakin öz cəmiyyətinin müəyyən edilmiş (Fransa) və oturuşmuş normalarına (Rusiya) tam uyğun şəkildə faktiki olaraq qeyri-müəyyənliyin ağuşuna atılırlar.

Bununla bağlı bir fakt xüsusi qeyd olunub: əgər birinci fəsildə hər iki yazıçının əsasən gənc qəhrəmanların problemlərinə müraciət etdiyi ilkin dövr yaradıcılığı əks olunubsa, indi onları yüksək yaş həddinə uyğun tələbləri olan personajlar əvəz edib. Bu gün üçün də kəskin və aktual olan sual qoyulur: niyə V.Tokareva və F.Saqanın əsərlərindəki sanballı həyat təcrübəsi olan və keçmişdə buraxılan səhvlərini nəzərə alan personajların əksəriyyəti məhəbbətlərini qoruyub saxlaya bilmir? Müəlliflərin gəldiyi qənaətə görə, hər bir növbəti addımına arxayın olmamaq qarşılıqlı anlaşmanın az qala tamamilə yoxluğu ilə çətinləşir. Qəhrəmanları hər şeydən əvvəl ən yüksək formalı eqoizm (eqosentrizm) fərqləndirir. Xarakterin bu neqativ fərdi xüsusiyyəti ilk növbədə insanlar arasında tam anlaşılmazlıq doğurur. Fikrimizcə, bu, bir-birinə qarşı düşünülmüş şəkildə güzəştə getmək bacarığının olmamasından qaynaqlanır. Nəticədə isə şəraitə uyğun olmayan qəzəb, özünü lazımınca dəyərləndirməmək. Bundan əlavə, V.Tokareva və F.Saqanın son dövr yazılarında yuxarıda adları çəkilən əsərlərin gənc qəhrəmanları üçün səciyyəvi olan analoji yelbeyinlik və məhəbbətdə qarşılıqlı səylərin olmaması müşahidə olunur.

Deyilənlərin sübutu kimi, məsələn, Jilin (F.Saqanın «Soyuq suda bir qədər günəş») əxlaqsızlıq girdabına düşməsini göstərmək olar. Onun

qohumlarının və yaxınlarının əhatəsindən qaçmaq istəyi o qədər qarşısıalınmazdır ki, hətta nəzarətdən çıxan aqressivlik hallarına səbəb olur. Əməkdaşlara qarşı yönəlmiş qəzəb və nifrət son nəticədə onu tam apatiyaya salır, ətrafdakılardan ayrılmaq, eyni zamanda professional fəaliyyətdən əl çəkmək istəyinə gətirib çıxarır. «Siz Bramsı sevirsinizmi?» romanında kişi eqoizmi və əsassız qısqanclıq baş qəhrəman Rojeni sevdiyi qadına istifadəçi münasibət bəsləməyə vadar edir. Əsərin əsas personajı olan Pol isə öz üzərində kənardan güclü psixoloji təzyiq hiss edərək, adi ikiüzlü şəxsə, hiss və ehtiraslarının quluna çevrilir.

V.Tokarevanın son dövr yaradıcılığında da eyni ağrılı simptomlar müşahidə olunur. Veronikanın həqiqi sevgidən məhrum olan dördyaşlı qızı Anna özünəməxsus «evdən ayrı düşmə sindromu» [67, 89] hiss edir. Povestin sonunda da o atılmış və sevilməyən vəziyyətdə qalır. «Raraka» hekayəsinin anonim qəhrəmanının məhəbbət seçimi də nə radikal, nə də pozitiv dəyişikliklərə gətirib çıxarır. Hekayənin adı simvolikdir və izaha ehtiyacı vardır: raraka dəniz və okeanlarda yaşayan dəniz işıldaquşunun zooloji tipidir. O, uzaq və əlçatmaz arzu obrazını təcəssüm edir. Öz rarakasını (yolgöstərən ulduzu) axtarıb tapmaq arzusunda olan hekayə qəhrəmanı Larisa ona çatmağa can atır. Qəhrəmanın xarakterində ən mühüm cəhət öz «kiçik qadın səadəti» uğrunda mübarizə aparmasıdır. Lakin axtarış və mübarizə metodları düzgün seçilmədiyindən, V.Tokareva və onun qəhrəmanı üçün əlçatmaz arzu dalınca qaçmaq həmin o məchulluğa varmaqla nəticələnir.

Güclü, iradəli, lakin şəxsi həyatını sıxıntı və tənhalıqda başlayan, yalnız professional maraqlarla məhdudlaşdıran qəhrəman ömrünü elə bu cür də başa vurur. («Səkkiz aydan sonra mən Avstraliyaya yola düşdüm. Avstraliyada hər şey tamamilə əvvəllər başqa ölkələrdə olduğu kimi idi: səhnə – mənim iş məkanım. Həyəcanlı sifətlər. Üstünlük təşkil edən rənglər – ağ-qara») [67, 397]. Yenə də kompozisiya priyomu kimi qapalı dairə. Faktiki olaraq əsərin skeletini örtən vahid zəncirin həmin o halqaları əvvəlki görkəmdə geri dönür.

İqor («Sən varsan. Mən varam. O var» povesti), həkim Yeqorov («Uzun gün» povesti) məğrür tənhalıqda qalırlar, redaktor Boçarov («Hər şey normaldır, hər şey yaxşıdır» hekayəsi) yalan və gecikmiş acı özünütənqiddən qeyri-müəyyənliyə qaçır, «Dərin qohumlar»ın personajları isə hətta ən yaxın gələcəyi proqnozlaşdırmaqdan bilərəkdən imtina edərək, bu günün tələbləri və ən zəruri ehtiyacları ilə yaşamağı təklif edirlər. Fikrimizcə bu, adıçəkilən yaşamaq amilinin reallaşdırılması nöqteyi-

nəzərindən V.Tokareva və F.Saqanın son dövr əsərlərini birləşdirən yeganə və ümumi xətdir.

Lakin «məchulluğa varmağın», yaxud «qeyri-müəyyənliyə varmağın» tipik olmayan formalarından biri təqdim olunan nəticə və ümumiləşdirmələrə görə hər halda əhəmiyyətli dərəcədə fərqlənir: rus yazıçısında tənhalıq faktı və bu cür evsiz-eşiksiz yaşamağın üsulu dissertasiyada çox vaxt məsum hadisədən asılı olan məhəbbət seçiminin variantlarından biri kimi xüsusi fərqləndirilib. Məsələn, «General Kuropatkinin evi» hekayəsinin qəhrəmanı Katerina heç bir görünən səbəb olmadan burulğana atılırmış kimi təhlükəli məhəbbət avantüralarına baş vurur. Bu, yalnız rus qadınının emosiyaları hesabına, impulsiv surətdə, ancaq «təzə təəssüratlar» qazanmaq məqsədilə edilir. Boş götürüb qaçmağın təkan nöqtəsi isə həyati reallıqla heç cür bağlı olmayan məşum hadisə – göy gurultusu və leysandır. «Raraka» hekayəsinin baş qəhrəmanı Larisa tamamilə mənasız hadisələr nəticəsində sevmədiyi insanın arvadı olur. Dissertasiyada bu cür xarakterik nümunələr kifayət qədərdir.

F.Saqanın romanlarında «məchulluğa varmaq» prinsipinin məntiqi fərqlidir, məhz harmoniyanın tədricən disharmoniyaya keçməsinin qanunauyğunluqları ilə diktə edilir. Bu, bir tərəfdən dissertasiyada tədqiqatın ayrıca qatı kimi təqdim olunur. Məhəbbətdə fransız yazıçısının qəhrəmanları tarazlığa və münasibətlərin saxlanılması üçün qarşılıqlı məqbul sayılan şərtlərin axtarılmasına yox, daha çox öz şəxsi ambisiyalarını təmin etməyə çalışırlar. Nə vaxta qədər ki, onların qayğısına qalırlar, onlar özlərini «bütöv», «intizamlı» və «dəyərli» şəxsiyyət sayırlar. Lakin yaxın adama şəxsən qayğı göstərmək vaxtı gələndə onların məhəbbəti bir qayda olaraq ağır vəzifəyə çevrilir və tənhalıqla bitir. Digər tərəfdən, fikrimizcə bu aspekt məhəbbətin harmoniyası və disharmoniyası barədə vahid mülahizə ilə tədqiqat işinin birinci və ikinci fəslini məntiqi cəhətdən birləşdirir.

Beləliklə dissertasiyada «qeyri-müəyyənliyə varmağın» səbəbləri dəqiq şəkildə əsaslandırılır. Həmin səbəblər hər iki söz ustasının yaradıcılığında ilk öncə kəskin və aktual problem olan qazınılmışlar və itirilmişlərlə bağlıdır ki, bu da tədqiqətın ikinci bölməsinin obyektini təşkil edir – F.Saqanın «Tutqun profil» romanı və V.Tokarevanın «Uçan yelləncək» hekayəsinin qarşılıqlı-müqayisəli təhlili. Burada işıqlı gələcəyin zəif işartısını görmək çətin deyil. Rus yazıçının hekayəsində baş qəhrəmanın birdən-birə gözləri açılır. Başgicəlləndirici attraksionda o gözlənilmədən aydın təsəvvür edir ki, yaşanan bütün ömür dairəvi hərəkətdir (yelləncək kimi), odur ki, təzə yaranan məhəbbətə fəlsəfi tərəfdən yanaşmaq lazımdır. Bununla

belə, F.Saqanın adıçəkilən romanında oxucuda belə fikir də oyana bilər ki, köhnə dünya və onunla bağlı xoşagəlməz xatirələr arxada qalıb və əsərin qəhrəmanı, bəlkə də ilk dəfə yeni, lakin olduqca qeyri-müəyyən hisslər üçün açıqdır.

Rəngarəng personajlar sırasında (fransız yazıçısı rəngkarlıq və incəsənətin digər məsələlərində onların həvəs və biliklərini göstərmək üçün hamısını kitabın ilk fəsillərində bir yerə yığıb) Joze-Alan Eş cütlüyü ön plana çəkilib. Məhəbbət seçiminin ilk mərhələsinin bünövrəsi qoyulub: illərlə ər-arvad kimi yaşadıqdan sonra Jose «birdən-birə başa düşür ki, yaxın vaxtda ondan ayrılacaq və heç vaxt ondan heç nə qəbul edə bilməyəcək, nə bir dollar, nə bir görüş» [56, 11]. Qərarın bədahətən meydana gölməsi və qətiyyəti heyrət doğurur, çünki dünya ədəbiyyatşünaslığı nəzəriyyəsindən yaxşı tanış olan qəhrəmanın gözlərinin birdən-birə açılması haqda xrestomatik nəzəriyyəyə uyğun gəlmir. Burada ailə bağlarını qırmaq arzusu qəhrəmanın ideal haqda subyektiv təsəvvürlərinə uyğun gələn məhəbbət seçimi etmək üçün istifadə edəcəyi tramplini xatırladır.

Bir tərəfdən, belə vəziyyət bir o qədər də təəccüblü deyil, çünki real şərait baxımından özünü doğruldur. Sərt xasiyyəti və qızına münasibətdə dözümsüzlük göstərdiyinə görə Sessilin atasının Annanı necə soyuq kinayə ilə olmazın günahlarda təqsirləndirdiyini yada salaq. Jil ehtirasların söndüyü dövrdə Natali ilə həyatı «təmiz cəhənnəm» adlandırırdı. Josenin əsassız qısqanclığı Polu əldən salmışdı, bu da onların qarşılıqlı məhəbbəti üçün əsas əngələ çevrilmişdi. Digər tərəfdən, ekzistensializm prinsiplərinə sadiq qalan, üstəlik realist məqamları da gücləndirən F.Saqan yetkin ailələrdə məhəbbətdə biganəliyi təhlükəli və dəyişmiş münasibətlər forması hesab etmir. Ona görə də «Tutqun profil» romanında, eləcə də son dövrə aid bir sıra digər əsərlərdə («Əzilmiş yataq», «Azıb gəlmiş») qəhrəmanlar asan olmasa da qətiyyətlə, arxaya baxmadan, birdəfəlik ayrılırlar. Yulius Kram ilə ilk görüşdən sonra bu insanda öz yeni arzularına dəstək hiss edən Joze vəcdə gələrək qışqırır: «Çıxıb getmək, qaçmaq, onun əlindən qurtarmaq». Əl-qolunu açmaq üçün o, azadlığın yeganə mümkün forması kimi qəti surətdə boşanmağı seçir. Oxucunu məhəbbət seçiminin belə azad yoluna, yaxud ilğımlı arzulara Şarl Bodlerin şerindən götürülmüş epiqraf da şərti olaraq istiqamətləndirir: Bəlkə elə sən də // Həqiqətdən xəyala qaçan // Zehnin yanlışlığısan? [56, 7].

Əlbəttə, Joze həqiqətdən xəyala düşünmədən qaçmır. Əvvələn, bir qədər sonra o, ürəyində etiraf edəcək ki, seçimi tələsik olmuşdur və birmənalı olaraq həyatdakı böyük çətinliklərdən doğmuşdur. Joze həm də ömrünün

qalan hissəsini onunla bağlamaq fikrində deyildi. İkincisi, fikrimizcə, onun temperamentinin xüsusiyyətlərini də yaddan çıxarmaq olmaz. Bununla da tədqiqat işində sərt, hər şeyi ölçüb-biçən fleqmatik Annadan, sentimental melanxolik Poldan başlayıb, fədakar xolerik Jozeyə qədər xətt uzadılmışdır. Eyni zamanda aydın olur ki, bu yolda bəzi mənəvi xarakterli dəyərlərin qazanılması və itirilməsi faktları da kifayət qədər səciyyəvi hal daşıyır. Prinsip etibarilə hər şey zərurət səltənətindən azadlıq səltənətinə keçmək üçün edilir. Ancaq əslində «kütlə içində tənhalıq» formulu üzrə baş verir. Şəxsiyyətin psixologiyasında daha çox aşağıdakılar baş verir: insanlar eyni addımı atır, nəticə isə müxtəlif olur. F.Saqanın «Aydın olmayan profil» romanında əks mənzərə müşahidə olunur: qəhrəmanlar özləri və ətraf mühitlə dil tapa bilmirlər, lakin paradoksal olaraq oxşar nəticəyə gəlirlər: F.Saqanın romanlarında az qala işıq ucu görünməyən tənhalıq, V.Tokarevada isə heç nə vəd etməyən gələcək.

Adı çəkilən problem dissertasiya işində bütün göstərilən materiallarla genetik bağlı olsa da, əsas *idealın mövcudluğu və onun dağılması* tematikasından bəzi şaxələnmələr də var. Müəyyən olunmuşdur ki, göstərilmiş əsərlərdə hər bir söz ustası apatiya vəziyyətindən və işıq ucu görünməyən tənhalıqdan çıxmaq probleminin həllində öz baxış bucağını axtarmışdır. Həmin bucaq F.Saqanın şəxsi istəyi ilə müəyyən olunmamışdır, daha çox obyektiv amillərdən irəli gəlmişdir. Axı onun əsərlərinin bir çox qəhrəmanları sanki XX əsrin ikinci yarısında Fransa cəmiyyətinin ötəri həzlərin qanunları ilə yaşayan müəyyən hissəsinin surətidir. Eyni zamanda, işin ikinci fəslində əks təyinatlı personajlar – güclü və işgüzar, məhəbbətə və dostluğa heç də yüngül və ağılsız münasibət bəsləməyən insanlar göstərilmişdir. Bu, hər şeydən öncə Anna («Soyuq suda bir qədər günəş») və Jozedir («Tutqun profil»). Analoji olaraq V.Tokarevanın «Uçan yelləncək» hekayəsində adsız qəhrəman fəal və yeni hisslərə açıq göstərilmişdir. Bu iki bədii obraz daha yaxşı gələcək ümidi ilə öz qadın səadətini bütün vicdana zidd olmayan və əlyetərli vasitələrlə müdafiə edir.

Yekunda aparılmış təhlildən irəli gələn nəticə və ümumiləşdirmələr yer alıb.

**Dissertasiyanın əsas müddəa və nəticələri müəllifin aşağıdakı məqalələrində əksini tapıb:**

1. Антиномии угасающей и возрождающейся любви в творчестве Ф.Саган и В.Токаревой. ADU-nun Elmi əsərləri. Bakı: ADU, 2011, № 3, s. 283-290
2. Тема предвкушения мимолетного счастья и оттенки «грустного одиночества» в творчестве Ф.Саган и В. Токаревой. Збiгник наукових праць Полтавского национального педагогического университета имени В.Г. Короленко. Филологичнi науки. Полтава, 2014, Выпуск 19, с. 30-35.
3. Тоска по идеалу в раннем творчестве Ф.Саган и В. Токаревой. Материалы XVI республиканской научной конференции докторантов и молодых ученых. Часть 2. Баку, 2012,№ 14, с. 171-175
4. Методический аспект изучения творчества Ф.Саган и В. Токаревой в вузе. Iнновацiйнi освiтнi технологii: проблеми, розвиток та досвiд вправадження. Матерiали XXXVII мiжнародноi науково-методичноi конференцii. Частина 1. Полтава, 2012, с. 237-240
5. «Бегство в никуда» как один из центральных способов существования в рассказах В. Токаревой. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı, Mütərcim, 2012, № 3 (çapda)
6. Проблема свободы выбора любви (на материале романа Ф.Саган «Неясный профиль»). Filologiya məsələləri. Bakı: Elm və Təhsil nəşriyyatı MMC, 2012, № 7. с. 396-400.
7. Общность тематики и отличительные особенности творчества Ф.Саган и И.Токаревой. «Dil və ədəbiyyat», Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: BDU, 2012, № 3 (83). с. 159-161.

**Rasima Farhad Asadzadeh**

# HARMONY AND DISHARMONY IN CREATIVE WORK OF F.SAGAN AND V.TOKAREVA

## Summary

This work is dedicated to creative work of French woman writer F.Sagan and Russian writer V.Tokareva, to specifics of "feminine" prose , main problems, set in their works.

Dissertation work consists of introduction, two chapters, conclusion and list of literature.

In introduction the author grounds the choice of theme, it's actuality, it's working out, presents the object and subject of work, it's aim and tasks. The scientific novelty of work, it's methodological basis and approbation are also given in introduction.

Chapter I is named "Depression for ideal in early works by F.Sagan and V.Tokareva". In this chapter author compared F.Sagan's early novels with V.Tokareva's works of "minor" genre. These works are connected by central idea- the youth both in France and in Russia lives too superficial and careless mode of life. So, the balance between sincere, deep feelings and real life is broken.

Chapter II is named "Problem of free choice in late period creative work by F.Sagan and V.Tokareva". In this chapter author made attempt to clear up the transformations, happened with their heroes, who grew up already. It must be pointed out, that the life of personages made writer to change their behaviour model accordingly to their age. Both writers underline the egoism and indifference as main features of heroes character. They can neither love nor do anything for another man. All these personages are quite lonely, and they cannot run away from their own internal depression anywhere.

In conclusion the author generalized all results and items of investigation, presented main principles of work, can be used for further investigations of such kind..

Main points of work are fixed in number of author's articles, published in different journals.

Çapa imzalanıb: 16.04.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: *mutarjim@mail.ru*